Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə Yaponiyanın Kabinet üzrə Katibliyi arasında səhiyyə sahəsində əməkdaşlıq üzrə Niyyət Məktubu 27 oktyabr 2015-ci il tarixində Yaponiyanın Səhiyyə Siyasəti üzrə nazir Akira Amarinin və Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifovun iştirakı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetində imzalanmışdır.

"Medical Excellence Japan" Təşkilatının direktoru, cənab Naoki Aikava, Baş nazirin müavini cənab Abid Şərifova, Yaponiyanın tibbi xidmət icmasının gələcəkdə Azərbaycan ilə əməkdaşlıq etməyə hazır olduğunu söylədi.

İki ölkə, səhiyyə sahəsində aşağıdakı iki bəndə əsaslanan, əməkdaşlığın inkişafına dair qarşılıqlı maraqları paylaşır.

- Tərəflər, dövlət və özəl əsaslarda insan resurslarının inkişafı daxil olmaqla, səhiyyə sahəsində qarşılıqlı və faydalı əməkdaşlığı inkişaf etdirmək məqsədilə imkanları tədqiq edəcəklər.
- Niyyət məktubunda qeyd olunan insan resurslarının inkişafı üzrə əməkdaşlığın bir hissəsi olaraq, Yaponiyanın Kabinet üzrə Katibliyi, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin texniki əməkdaşlıq sxemi əsasında 2016-cı ilin mart ayında baş tutacaq "Xəstəxanaların İdarəçiliyi" üzrə təlim proqramını xoş qarşıladı.

"Medical Excellence Japan" Təşkilatı, 2011-ci ildə Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye Nazirliyinin dəstəyi ilə yapon tibbi xidmətlərinin qloballaşmasını təbliğ etmək məqsədi ilə dövlət və özəl sektorların tərəfdaşlığı olaraq, qarşılıqlı faydalı beynəlxalq əməkdaşlıq fəlsəfəsi altında yaradılmışdır.



Şəkillər Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təqdim olunmuşdur





